**UOT 008:316.33/.35**

***Məhsəti Cəfərova***
***AMEA-nın Fəlsəfə İnstitutunun dissertantı***
***AZ – 1141, Bakı, Hüseyn Cavid, 115***
***Email:mahsati.cafarova@mail.ru***

# ELİTAR VƏ KÜTLƏVİ MƏDƏNİYYƏTİNOXŞARVƏ FƏRQLİ CƏHƏTLƏRİ

**Xülasə:** Cəmiyyətdə mədəniyyətin mövcudluğunun üsulu və xüsusiyyətləri nöqteyi-nəzərindən kütləvi və elitar mədəniyyətlər bir-birindən ayrılır. Cəmiyyətin yaratdığı mədəniyyətlər içərisində elitar və kütləvi mədəniyyət tipləri mövcuddur. Hər iki mədəniyyət tipinin xüsusiyyətlərinə müasir cəmiyyətdə rast gəlmək mümkündür, həm elitar və həm kütləvi mədəniyyət tipləri tarix boyu bir-biri ilə mürəkkəb qarşılıqlı əlaqədə olmuşlar və bu qarşılıqlı əlaqə bu gün də öz mövcudluğunu qoruyub saxlamaqdadır. Həm kütləvi mədəniyyətin, həm də elitar mədəniyyətin üstün xüsusiyyətlərindən bəhrələnmək lazımdır. Bu baxımdan kütləvi mədəniyyət daha geniş yayıldığından ondan insanların maarifləndirilməsi üçün istifadə etmək mümkündür.

**Açar sözlər:** elitar mədəniyyət, kütləvi mədəniyyət, mədəniyyət tarixi, müasir mədəniyyət, mədəniyyətin auditoriyası

Tarixi mərhələlərdən keçmiş mədəniyyət uzun bir təkamül yolu keçmiş və müasir dövrdə də insan həyatının ayrılmaz tərkib hissələrindən biri kimi mövcuddur. Mövzuya bu aspektdən yanaşsaq mədəniyyətin tarixi təqribi hesablamalar görə 30-40 min ildir. Mədəniyyətin “ikinci təbiət” adlandırılması heç də təsadüfi bir mahiyyət kəsb etmir, mədəniyyət sayəsində şüurlu insan sanki yeni bir təbiət yaradır. Mədəniyyət insanın təbiətə heç də kortəbii müdaxiləsindən ibarət deyil, insanın təbiətə məqsəduyğun və düşünülümş tərzdə təsiridir.

Latın dilindəki “cultura” sözündən törəyən mədəniyyət ifadəsi ilk öncədən “torpağın becərilməsi” analamını kəsb edirdi. Lakin zaman keçdikcə bu ifadə daha geniş anlam kəsb etməyə başladı. Mədəniyyət insan həyatının müxtəlif sahələrini ehtiva etdiyindən onun müxtəlif formaları mövcuddur. Bu baxımdan mədəniyyət insan fəaliyyətinin müxtəlif aspektlərinin məcmusundan ibarətdir. İnsanın fəaliyyətindən asılı olaraq mədəniyyət maddi və mənəvi mədəniyyətə bölünür. “Cəmiyyətin mədəni inkişaf səviyyəsi həmin cəmiyyətdə yaradılan mədəni sərvətlərin həm həcmi, həm yayılma miqyası, həm də insanlar tərəfindən mənimsənilməsi ilə əlaqələndirilir. Mənəvi sərvətlərin yaradılması, yayılması və istifadə olunması üsulları isə cəmiyyətin sosial-mədəni təşkilindən asılıdır. Mənəvi istehsalın məzmununun dəyişməsi özünü ilk növbədə mənəvi sərvətlərin yaradılması, mübadilə edilməsi, bölgüsü və istifadə üsullarının dəyişməsi və inkişafında nəzərə çarpdırır. Cəmiyyətin mədəni inkişafının tempi vüsəti və faydalılığı ona doğru istiqamətləndirilmiş insanların yaradıcı fəallığının dərəcəsindən, onların əhatə dairəsinin genişliyindən asılıdır. Elə buna görə də mədəni tərəqqinin əsas meyarlarından biri xalqın tarixi prosesdə şüurlu iştirak dərəcəsi, onun mənəvi fəaliyyətə cəlb olunma dairəsi ilə əlaqədardır.” (1, səh.10-11)

Qanuanuyğun və dialektik bir səpkidə gedən tarixi inkişaf nəticəsində cəmiyyətdə müxtəlif sosial təbəqələr meydana gəlir. Bu sosial qrupların estetik zövqünə görə mədəniyyətdə elitar və kütləvi mədəniyyət istilahları meydana gəlir. Qeyd edək ki, həm elitar və həm də kütləvi mədəniyyət ümumilikdə mədəni sərvətlərin istehsalı ilə səciyyələnir. Lakin onlar arasında bir sıra fərqlər də möbcuddur ki, bu

fərqlər onları bir-birindən ayırır. Bununla yanaşı, hər iki mədəniyyətdə əsas və mühüm yeri insan tutur və hər iki mədəniyyət formasında insan subyekt rolunu oynayır. Həm elitar və həm də kütləvi mədəniyyətin hərəktəverici qüvvəsi insandır.

Kütləvi və elitar mədəniyyəti cəmiyyətdə mədəniyyətin mövcudluğunun üsulu və xüsusiyyətləri nöqteyi-nəzərindən bir-birindən ayrılır. Müasir cəmiyyətin yaratdığı mədəniyyət nümunələri içərisində həm elitar və həm kütləvi mədəniyyəti tipi mövcuddur. Hər iki mədəniyyət tipinin xüsusiyyətlərinə müasir cəmiyyətdə rast gəlmək mümkündür, həmçinin onu da qeyd etmək yerinə düşərdi ki, həm elitar və həm kütləvi mədəniyyəti tipləri tarix boyu bir-biri ilə mürəkkəb qarşılıqlı əlaqədə olublar və bu qarşılıqlı əlaqə bu gün də öz mövcudluğunu qoruyub saxlamaqdadır.

Elitar mədəniyyət dedikdə, cəmiyyətin imtiyazlı qrupların meydana gətridiyi mədəniyyət başa düşülməlidir.Ümumiyyətlə, elitar mədəniyyətin əsas xüsusiyyətləri içərisində onun qapalılığını və nəcibliyini vurğulmaq yerinə düşərdi. Adından da göründüyü kimi elit təbəqənin mədəniyyəti olan litar mədəniyyət haqqında bəzən "yüksək mədəniyyət" istilahını da işlədirlər, öz müstəsnalığı ilə seçilən elitar mədəniyyət nümunələri insanların kiçik və elit dairəsi üçün nəzərdə tutulmuşdur.

Elitar mədəniyyət kütləvi mədəniyyətdən mürəkkəbliyi, kreativliyi, məhdudluğu və intellektuallığı ilə seçilir.“Orta əsrlərdə İntibah mədəniyyətinin yüksəlişi, sosial sferanın təbəqələşməsi ilə müşahidə olunurdu. Antik dövrün harmoniyasına, erkən orta əsrlərin məntiqi və rasional təfəkkürünə söykənən ənənəvi mədəniyyətin struktural məzmunu tədricən öz mahiyyətin itirdi. Ənənəvi mədəniyyətdən elitar və kütləvi mədəniyyət ayrıldı. Elitar mədəniyyət antik mədəniyyətdəki harmoniyanın və orta dövrdəki struktural məzmunun yeni varisi kimi çıxış edirdi. Kütləvi mədəniyyət cəmiyyətin iqtisadi tələblərinə cavab verən yeni bir mənəviyyat tipi formalaşdırdı. Kütləvi mədəniyyətin iqtisadi məkana yiyələnmək imkanı onun daha geniş auditoriyalara yiyələnməsinə səbəb oldu. Kütləvilik ictimai düşüncənin stixiyasına çevrildi. Elitar mədəniyyət getdikcə sıxışdırılsa da, öz təsir imkanlarının gücünə görə varlığını qoruyub saxlayırdı.” (2, səh.126)

Zaman ötdükcə mədəni innovasiyaların təsiri nəticəsində mədəniyyət nümunələri bir sıra dəyişikliklərə məruz qalır. Səmərəli bir formada gerçəkləşdirilən mədəni mübadilə nəticəsində həm kütləvi və həm də elitar mədəniyyət nümunələri dəyişikliyə və yeniləşməyə məruz qalır. Ali və ülvi dəyərləri özündə ehtiva edən elitar mədəniyyətə cəmiyyətin yüksək təbəqəsindən yaradıldığı kimi onların sifarişi ilə peşəkar sənətkarlar tərəfindən də yaradıla bilər.

Elitar mədəniyyət klassik musiqiyə, rəssamlığa, ədəbiyyata və s. mədəniyyət növlərinə üstünlük verməsi ilə kütləvi mədəniyyətdən fərqlənir. Kütləvi mədəniyyət isə bir qayda olaraq elitar mədəniyyətdən az bədii dəyərə malik olur. Lakin bütün bunlara baxmayaraq kütləvi mədəniyyətin auditoriyası elitar mədəniyyətin auditoriyasında öz genişliyi ilə kəskin seçilir. Kütləvi mədəniyyət nümunələri insanların müvəqqəti tələbatını ödəyir, hər cür yeni hadisəyə reaksiya qarşı verir və onu özündə əks etdirir. Ona görə də kütləvi mədəniyyət nümunələri, xüsusilə mahnılar, öz aktuallığını tez itirir, elitar mədəniyyətdən fərqli olaraq tez unudulur, əhəmiyyətini itirir və dəbdən düşür. Elitar mədəniyyətdə isə bu baş vermir və elitar mədəniyyətdən ehtiva olunan əsərlər uzun müddət öz aktuallığını qoruyub saxlayır, öz mədəni və estetik dəyəri ilə fərqlənir.

Bildiyimiz kimi, mədəniyyət həm ayrı ayrı fərdlərin, həm də cəmiyyətdə mövcud olan müxtəlif birliklərin mədəni fəaliyyəti sahəsində təzahür edir. Bu nöqteyi-nəzərdən yanaşsaq, mədəniyyət təkcə müxtəlif etnik qruplar tərəfindən deyil, həmçinin müxtəlif sosial qruplar tərəfindən da meydana gətirilə bilər. Mədəniyyət haqqında fikir söyləyən müxtəlif ideyalar, konsepsiyalar irəli sürən, filosoflar, kulturoloqlar, sosioloqlar kütləvi mədəniyyətə qarşı laqeyd münasibət bəsləmiş, bunun əksinə olaraq isə elitar mədəniyyət yaratdığı estetik dəyərlərə yüksək önəm vermişlər. “Mədəniyyətin elitar konsepsiyalarının əsas elementləri A.Şopenhauerin və F.Nitsşenin fəlsəfi əsərlərində öz əksini tapmışdır. Elitizm nəzəriyyələrində bu haqda müəyyən təhlillər aparmış alman romantiki A.Şopenhauer özünün 1844-cü ildə tamamladığı «Dünya azadlıq və tamaşa kimi» əsərində bəşəriyyəti sosioloji planda iki hissəyə bölür: «dahi insanlar» (yəni estetik təcəssümə və bədii yaradıcılıq fəaliyyətinə mənsub olanlar) və
«faydalı insanlar» (sırf praktiki və utilitar fəaliyyətə yönəlmiş insanlar). O, «utilitarizmin cansıxıcı aləmini», «faydalı insanların» və «bacarıqsızlar dəstəsinin» iç dünyasını üzə çıxararaq «dahi insanlar» arasında belələrinin olmamasını təsdiq edir. Şopenhauer hesab edir ki, dahi əsərlər publika, kütlə tərəfindən dərk edilə bilməz və dahilərin yaratdıqları kütlə çoxluq üçün deyil. Onlar bunları anlamaqda çox acizdirlər.

F.Nitsşe «kütləyə qarşı qiyamın» ən parlaq ifadəçisi idi. Öz elitarist konsepsiyalarını bu filosof aşağıdakı fəlsəfi əsərlərində irəli sürmüşdür: «Faciənin musiqinin ruhundan doğulması» (1872), «Fövqəlinsanlıq» (1878), «Şən elm» (1872), «Zaratuştra belə söyləmişdir» (1884). Bu əsərlərində

Nitsşenin elitarizmi «Fövqəlinsan» ideyası üzərində təzahür edir. Bu «Fövqəlinsan» cəmiyyətdə imtiyazlı mənsəbə malik olub, həm də unikal estetik həssaslıq və qavramaya xasdır.” (3)

Elitar mədəniyyəti yüksək təhsil görmüş insanlar üçün nəzərdə tutulmuşdur. Bu prizmadan yanaşsaq, elitar mədəniyyətin düzgün qavranılması olduqca çətindir, yalnız xüsusi hazırlıq görmüş, təhsil səviyyəsi yüksək olan insanlar bu mədəniyyətin əsl mahiyyəti haqqında müfəssəl biliyə malik ola bilər. Aristokrat təbəqənin estetik zövqünü oxşayan elitar mədəniyyətin əsas formulası "sənət sənət üçün"dür. Zaman keçdikcə elitar mədəniyyətin dairəsində genişlənmə halları müşahidə edilir, elitar mədəniyyətin daha avanqard istiqaməti mürəkkəb və fəlsəfi xarakterli olması ilə seçilir.

Milli və beynəlmiləl formada mövcud olan kütləvi mədəniyyətin ən parlaq nümunələri içərisində populyar və estrada musiqisi mühüm yer təşkil edir. Adətən kütləvi mədəniyyət nümunələri yüngüllüyü, bayağılığı ilə seçilir və əsasən əylənəcə məqsədi kəsb etdiyindən daha çox populyarlıq qazanmış olur. Bir çox tədqiqatçılar bu qənaətə gəlmişlər ki, kütləvi mədəniyyətin populyarlaşmasında ən önəmli faktor kimi orta təbəqə mühüm rol oynayır. Sovet İttifaqının parçalanması nəticəsində sosializmdən bazar iqtisadiyyatına qədəm qoyduğumuz bir dövrdə iqtisadi mənafe naminə elitar mədəniyyət adı altında əslində kütləvi mədəniyyət yaradılır. “Azərbaycan bazar iqtisadiyyatı kursu seçdiyindən, burada da «orta təbəqənin» formalaşması prosesi izlənir. Artıq təqribən eyni dərəcədə qazanan insanların maraqları da eyniləşir. Onlar tele-radio, qəzet reklamında təbliğ olunan büdcələrinə uyğun malların istehlakçısı, televizorda əyləncəli proqramların, seriallarların seyrçisi, kütləvi mədəniyyətin diktə etdiyi yaşam tərzinin, zövqün daşıyıcılarıdır. Bir çox hallarda keçmiş sovet tərbiyəsini gördüyündən bu insanlar kütləvi mədəniyyəti öz səviyyələrinə uyğun olmadığını düşünürlər. O zaman, kütləvi mədəniyyət yaradıcıları öz işlərini «elitar» adı ilə pərdələyirlər. Bu isə «elitar» sözünün dəyərini azaltmaqla bərabər, ona qarşı inamsızlıq yaradır və onu kütləviləşdirir. Belə nəticəyə gəlmək olar ki, Azərbaycan mədəni həyatında kütləvi mədəniyyət formasını yad və səviyyəsiz ünsür sayma meylləri var və bu meyllərin qarşısını almaq üçün ona yalnış ad verirlər...” (4)

XVIII yüzilliyin sonları və XIX yüzilliyin əvvəllərində baş vermiş sənaye inqilabı nəticəsində istehsal daha kütləvi bir hala almağa başladı. Bu nöqteyi-nəzərdən də kütləvi mədəniyyət daha geniş spektrdə yayılmağa başladı. Sonralar da sənayedə baş verən tərəqqi və kütləvi-informasiya vasitələrinin inkişafı, XX əsrdə televiziya və radionun meydana gəlməsi nəticəsində mədəniyyətdə kütləviləşmə halları sürətlə yayılmağa başladı. Xatırladaq ki, birinci sənaye inqilabı 1784-cü ildə, ikinci sənaye inqilabı 1870- ci ildə, üçüncü sənaye inqilabı isə 1969-cu ildə baş vermişdir, hazırda isə bəşəriyyətdə dördüncü sənaye inqilabının elementləri özünü biruzə verir.

Ümumiyyətlə, bütün sənaye inqilabları elmi-texniki innovasiyalarla müşahidə edilir və bu sənaye inqilabları nəticəsində mədəniyyətdə kütləviləşmə halları daha geniş yayılmış və hətta bir sıra işbazlar elitar mədəniyyət adı altında əslində kütləvi mədəniyyət nümunələri yayılmaqdadır. Təbii ki, bu qəbildən olan xoşagəlməz proseslər mədəniyyət estetik zövqlərin korlanmasına gətirib çıxarır və gerçək elitar mədəniyyət nümunələri unudulur. Qeyri-peşəkar insanlar tərəfindən yaradılan bu tipdə olan mədəniyyət nümunələrinə qarşı tənqidi münasibət bəsləmək, onların kütləvi mədəniyyət nümunələrini elitar mədəniyyət kimi təqdim etməsinə qarşı mübarizə aparmaq mədəniyyətimizin inkişafında mühüm rol oynayır. “Elitar nəzəriyyələrin ilkin funksiyalarını, bir tərəfdən zəhmətkeşlərə müstəqil fəaliyyətdə «bacarıqsız» olduqlarını inandırmaq və bunun nəticəsində kənardan «seçilmiş»lərin onlar üzərində rəhbərliyinin zərurətini əsaslandırmaq təşkil edirdisə, digər tərəfdən istismarçı siniflə istismar olunan sinif arasındakı antaqonist münasibətləri maskalamaq və bu ziddiyyəti «kütlə» ilə bəzi görkəmli şəxsiyyətlər arasındakı «daimi» təzad kimi qələmə vermək idi. Göründüyü kimi, elitar nəzəriyyələrin ictimai əsasını sinifli antaqonist cəmiyyətdə zəhmətkeş kütlələrin sosial vəziyyəti və hakim siniflərin iqtisadi, siyasi, mənəvi hökmranlığı təşkil edir. lakin bu ümumi cəhət və səbəblərlə yanaşı, hər bir tarixi dövr vəmərhələnin zəruri şəraitində irəli gələn spesifik xüsusiyyətlər də mövcuddur ki, məhz bunlar əsasında yeni konsepsiya və təlimlər formalaşır.” (5, Səh.60)

Kütləvi mədəniyyətin yaratdığı problemlər uzun müddətdir ki, aramsız diskussiyaların obyektinə çevrilmişdir. Bir çox elm sahələrində çalışan alimlər kütləvi mədəniyyətin yaratdığı estetik böhranın tədqiqi ilə məşğuldur, bunlar sosiologiya, sənətşünaslıq, fəlsəfə, estetika, sosial psixologiya, siyasi iqtisadiyyat və s. sahələrdə çalışan alimləri misal göstərmək olar, həmçinin yazıçılar, ədəbi tənqidçilər, publisistlər də bu mövzuya toxunmuşdur. Bu məsələni müzakirə edən, sistemli şəkildə araşdıran dünya alimləri içərisində Duayt Makdonald, Bernard Rozenberq, Ernest - van den Haaq, Devid Uaş, Daniel Bell, Eduard Şill, Daniel Burspş, Cilbert Seldes, Artur Şlezunqer (kiçik), Herbet Hans, Rayt Mills, Pol Lazarsfeld, Riçard Xoqqar, Cudit Todd və başqalarının adını vurğulamaq yerinə düşərdi.

Yuxarıda adları çəkilən tədqiqatçılar kütləvi mədəniyyəti müxtəlif baxımlardan araşdırılmış, onun mühüm xüsusiyyətlərini aşkar etmiş və onu müxtəlif aspektlər nəzərdən keçirmişdir. Tədqiat nəticəsində

kütləvi və elitar mədəniyyətin əsas cəhətləri analiz edilmiş, hər iki mədəniyyət tipinin auditoriyası müəyyənləşdirilmiş, onların mədəni müxtəliflik nisbəti, növləri və janrları, kütləvi mədəniyyət və kütləvi kommunikasiya vasitələrinin inkişaf yolları, onların bir-birindən qarşılıqlı asılılığı, elitar mədəniyyətə nisbətən kütləvi mədəniyyətin üstünlük təşkil etməsində sosial zəmin rolu müəyyənləşdirilmişdir.

Sovet İttifaqın dövründə kütləvi mədəniyyətin müzakirəsi və kütləvi mədəniyyət haqqında nəzəriyyələr irəli sürülərək öyrənilməsi halları bir qədər sonralar başlayır. İlk dəfə keçən əsrin 60-cıillərdə sovet yazıçıları bu barədə tənqidi xarakterli fikirlər irəli sürür. Sovet tədqiqatçıları digər kütləvi mədəniyyətiə kapitalizm sisteminin ümumi böhranı kimi baxırdılar və kütləvi mədəniyyətin formalaşmasında günahkar kimi kapitalizm qurluşunu göstərirdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyev hələ sovet hakimiyyəti illərində xalqımızın yüksək estetik dəyərlərinin formaşması naminə elitar mədəni siyasətə birbaşa olaraq rəhbərlik etmişdir. Ulu öndər Heydər Əliyev mədəniyyətimizin inkişafında, estetik dəyərlərimizin formalaşmasında, milli mənəvi dəyərlərimizin tərəqqisində xüsusi xidmətləri olmuşdur. Heydər Əliyevin mədəniyyət konsepsiyası həm maddi və həm də mənəvi mədəniyyətimizin intibahında millilik zəmninə, Azərbaycançılıq ideologiyasına riayət etməyə əsaslanır.

Ümumiyyətlə, elitar mədəniyyətin meydana gəlmə tarixi olduqca qədimdir və hələ Qədim Yunanıstanda elitar mədəniyyətin təzahürləri özünü biruzə verməyə başlamışdı. Antik dövrdə intellektual elitanın və xüsusi peşəkar qrupların vasitəsilə elitar mədəniyyət yaradılır, həmçinin elit təbəqə bu mədəniyyətin daşıyıcısı, qoruyucusu və varislik prinsipi ilə bir nəsildən digər nəslə ötürülməsi vəzifəsini də öz üzərinə götürmüşdü. Elitar mədəniyyətdən fərqli olaraq kütləvi mədəniyyət nümunələri xristian sivilizasiyasının meydana gəldiyi bir dövrdə yaranmağa başlayıb və kütləvi auditoriya üçün nəzrdə tutulması nöqteyi-nəzərindən elitar mədəniyyətin sadələşdirilmiş variantıdır.

Ümumiyyətlə, elitar və kütləvi mədəniyyət anlayışları tarixən aristokrat mədəniyyəti və "qara camaat" mədəniyyəti kimi formalaşmış və bu proses bu gün də öz aktuallığını itirməyibdir. "«Elita», «kütləvi cəmiyyət» – bu anlayışlar müasir sosioloqların, mədəniyyətşünasların əsərlərində təcəssüm tapan mövzulardır. «Elitizm» və «kütləvi cəmiyyət» mövzularına toxunaraq bu nəzəriyyəçilər bəşəriyyətin tarixi, strukturu və müasir cəmiyyətin sosial dinamikasını aydınlaşdırmağa cəhd göstərirlər. Amerikalı sosioloq U.Kornhauzer təsdiq edir ki, bu anlayışlar müasir mədəniyyətşünaslıq və sosioloji ədəbiyyatlarda əsas hadisələrdən birinə çevrilmişdir. Elitistlər («elita» sözü mənşəcə fransız «elite» sözüdür, mənası «ən yaxşı, seçilmiş» deməkdir. Elitist – elitizm nəzəriyyəçisidir) təsdiq edirlər ki, hələ lap qədimlərdən insanlıq iki təbəqəyə – hökmranlıq edən qrup və kütləyə – bölünürdü. Bu nəzəriyyəyə görə elitanın əlində xüsusi qabiliyyət və idarəetməyə xas olan siyasi hakimiyyət gəlməlidir. Xalq kütlələrini isə elitistlər elitanın hər bir əmrini gözüyumulu şəkildə həyata keçirən kütlə kimi qiymətləndirirlər. Sözsüz ki, bu nəzəriyyələr istismarçı siniflərin özünəməxsus ideologiyasının ənənəvi baxışlarının nöqteyi-nəzərləridir." (5, Səh. 58)

Bildiyimiz kimi XVII-XVIII əsrlərdə Qərbi Avropada macəra roman janrı meydana gəldi və böyük tiraj hesabına bu janrın oxucu auditoriyası xeyli genişləndi, sonralar isə mütəmadi olaraq artan gündəlik istehsal nəticəsində kütləvi mədəniyyət sahəsində böyük artım müşahidə edildi. Ümumiyyətlə, nəticəsində kütləvi mədəniyyət termini ilk dəfə 1941-ci ildə Almaniyalı professor, filosof və sosiloq Marks Horkhaymer işlətmiş və Horkaymerdən qısa bir müddət sonra isə 1944-ci ildə isə amerika alimi, sosioloq Con Dan Makdonald bu terminə müraciət etmişdir.

Kütləvi mədəniyyət yüksək mənəvi dəyərlər və estetik qabiliyyət tələb etməsə də onun müasir dövrdə geniş auditoriyaya malik olmasına əsas səbəb kimi son dövrlərdə kütləvi informasiya vasitələrinin geniş məkanda fəaliyyət göstərməsini, xüsusilə də peyk televiziyasının, internetin meydana gəlməsini göstərə bilərik. Həm kütləvi mədəniyyət, həm də elitar mədəniyyət ümumi mədəniyyətin bir hissəsidir, yalnız istehlakçılarının və sosial təbəqələşmə sayəsində aralarında bölgü meydana gəlmiş, kütləvi və elitar mədəniyyət nümunələri bir-birindən ayrılmışdır.

Son dövrlərdə dünyada aparılan müxtəlif hesablamalara görə dünya əhalisinin çox cüzi bir hissəsi isə elitar mədəniyyət istehlakçıları qismində fəaliyyət göstərir. Cəmiyyət həyatında üstünlük təşkil edən kütləvi mədəniyyətdən daha çox kollektiv təbliğatçı və təşkilatçısı kimi istifadə etmək mümkündür. Eyni zamanda kütləvi mədəniyyət bir növ cəmiyyətin əhval-ruhiyyəsinin indikatoru rolunu oynayır. Kütləvi mədəniyyətin əsasən komersiya maraqları çərçivəsində hazırlanması danılmaz bir faktdır. "Elitar vəkütləvi mədəniyyət formaları indi tamam yeni, Qərbi Avropa və Amerika standartları ilə təcəssüm olunmağa başladı. 70 il ərzində dünya mədəni prosesindən ayrıca fəaliyyətdə olan milli mədəni mühit tez bir zamanda uyğunlaşma yaşayır və dünyanın indiki mərhələyə qədərki yolunu qət eləmir. Bu səbəbdən bəzi hallarda müasirləşmə meylləri kor-koranə, xaotik və diletantcasına aparıldığından mədəni prosesdə yalnışıqlar baş qaldırır. Yaradıcı fəaliyyətdə əmtəəni görmək istəyi öncəki əsrlərdə qazanc mənbəyi kimi

təzahür olunurdusa, yeni dönəmdə bu kommersiya vasitəsinə çevrildi. Kütləvi kommunikasiyavasitələrinin güclü inkişafı və bu maraqların birləşməsi nəticə etibarı ilə kütləvi mədəniyyətin yenimənbələrini ortaya qoydu. Öncədən qoyulmuş kommersiya prinsipi və konveyer istehsalı mədəniyyətə şamil olundu. Bu isə heç bir tərzdə digər istehsal sahələrindən seçilmir. Getdikcə bu sahənin inkişafı mədəniyyətin şou-biznes anlayışı ilə əvəzlənməsinə səbəb oldu.” (6)

Bu nüansı da unutmayaq ki, həm elitar, həm də kütləvi mədəniyyət nümunələri insanlar tərəfindən meydana gəlmişdir və bu iki mədəniyyət tipi arasında müəyyən fərqlərin mövcud olmasına baxmayaraq hər iki mədəniyyət tipi vahid mədəni məkanda təzahür etmişdir. Həm kütləvi mədəniyyətin, həm də elitar mədəniyyətin üstün xüsusiyyətlərindən bəhrələnmək lazımdır. Bu baxımdan yanaşsaqkütləvi mədəniyyət daha geniş yayıldığından ondan insanların maarifləndirilməsi üçün istifadə etmək mümkündür. Çünki vaxtilə də maarifçilər bu yolla insanlara təsir göstərmiş, insanların savadlandırılmasında bu vasitədən istifadə etmişdir. Elitar mədəniyyəti isə sadə xalqın anladığı bir tərzdə yaratmaqla bu mədəniyyətin kütləviləşməsinə zəmin yaratmaq olar.

### Ədəbiyyat:


1. Sədaqət Məmmədova. “Mədəniyyətşünaslıq”, (dərs vəsaiti) Bakı, “Kooperasiya” nəşriyyatı-2001.
2. Sədaqət Əliyeva. Fəlsəfi təfəkkürün strukturunda bədiilik və kütləvi mədəniyyət. Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XXV buraxılış, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2013
3. Elitar və kütləvi mədəniyyət. http://kayzen.az/blog/kulturologiya/
4. Kütlə və onun mədəniyyəti. http://manera.az/cemiyyet/
5. Elitar və kütləvi mədəniyyət anlayışları. «Elitarizm» və «kütləvi cəmiyyət» nəzəriyyələri – M. Manafova. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. M.C.Manafova, N.T.Əfəndiyeva və S.A.Şahhüseynovaın ümumi redaktəsilə. Bakı: Sabah nəşriyyatı (2008), 2010
6. Elçin Əlibəyli. Elitar və kütləvi mədəniyyət. http://elchinalibeyli.blogspot.com/2013/05/


**Мехсети Джафарова**
**Массовая и элитарная культуры: схожие черты и различия**

**Резюме**

В данной статье автор приводит ряд методов, по которым исследует и различает характерные черты, таких понятий, как массовая и элитарная культуры. Как элитарная, так и массовая культура создана благодаря потребности разных слоев общества. Элитарная культура отличается от массовой культуры сложностью, креативностью, интелектуальностью и возвышенностью. А массовая культура рассчитана на многии слои разного общества и несет в себе функции просвещения.

**Ключевые слова**: элитарная культура, массовая культура, история культуры, современная культура, аудитория культуры.

**Mehseti Jafarov**

**Mass and elitist cultures: similarities and differences**

**Summary**

In this article the author cites a number of methods by which he investigates and distinguishes characteristic traits, such concepts as mass and elitist cultures. Both elitist and mass culture are created due to the needs of different strata of society. Elite culture differs from mass culture in complexity, creativity, intellectuality and sublimity. A mass culture is designed for many layers of different societies and carries the function of education.

**Keywords:** elitist culture, mass culture, history of culture, modern culture, culture audience.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.11.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.11.2017Məqalənin çapa qəbul olunma tarixi: 19.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tamilla Əhmədova**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**